*Sənət toplusu*

# QOBUSTAN



1 · 2008





Əşrəf Heybətov: "*Karvan*"



Əşrəf Heybətov: "*Xoşbəxtlik quşu*"



Əbülfəz Fərəcoğlu: "*Bahar*"



# QOBUSTAN

1/141 Yaz — 2008

SƏNƏT TOPLUCU 1969-cu ildən çıxır

**Baş redaktor**

**Ələkbər SALAHZADƏ**

*Təsisçilər:*
*ANAR,*
*"Qobustan"ın*
*yaradıcı heyyəti*
*və*
*Azərbaycan*
*Yazıçılar*
*Birliyi*

**Redaksiya heyyəti:**

**Ayaz SALAYEV, Azər ABDULLA, Azərpaşa NEMƏT, Cəfər QİYASİ, Gülbəniz GÖYÜŞQIZI, İlham RƏHİMLİ, İnqilab KƏRİMOV, Məryəm ƏLİZADƏ, Maarif SOLTAN (redaktör müavini), Natiq RƏSULZADƏ, Nurəngiz GÜN, Oqtay MİRQASIMOV, Rasim ƏFƏNDİ, Rüstəm İBRAHİMBƏYOV, Sara NƏZİROVA, Vaqif ƏLİXANLI, Zemfira SƏFƏROVA**

Şəhadətnamə №347
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:
Bakı--370000
Xaqani küçəsi, 25

Telefon: 493-68-01

www.qobustan.org
e-mail: gobustan@azer.net

Bədii redaktor AYXAN
Kompüter mühəndisi ALLAHVERDİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası



Demiş hər ğönçəyə aşiqligi razın səba derlər,
El ağzın tutmaq olmaz, qorxuram, ey gül, sana derlər.

Əsiri-dərdi-eşqi məsti-hüsn çox, əmma
Biruz məşhur olan, leyli sənə, Məcnun mana derlər.

Sənin mehrü vəfa göstərdiyin əğyarə çox gördüm,
Qələtdir kim, səni bimehr oxurlar, bivəfa derlər.

Sənə derlər büti-Çin, zülfünə zünnar söylərlər,
Zəhi-imanı yoxlar, küfr söylərlər, xəta derlər.

Mənə derlərdi əvvəl bir mələkdir sevdiyin, hala
Görənlər sən fəqirə göydən enmiş bir bəla derlər.

Mərizi-eşq üqdi-zülfün eylər arizu, zira
Müaliclər bu mühlik dərdə müşkildir dəva derlər.

Füzuli, aşiqə onlar ki, derlər tərki-eşq eylə,
Deməzlərmi xəta, təğyir qıl hökmi-qəza derlər.

* * *

Məndə Məcnundan füzun aşiqlik istedadı var,
Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var.

Nola qan tökməkdə mahir olsa çeşmim mərdümü,
Nütfeyi-qabidürür, ğəmzən kimi ustadı var.

Qıl təfaxür kim, sənin həm var mən tək aşiqin,
Leylinin Məcnunu, Şirinin əğər Fərhadı var.

Öylə bədhaləm kim, əhvalım görəndə şad olur,
Hər kimin kim, dövr cövründən dili-naşadı var.

Gəzmə, ey könlüm quşu, ğafil fəzayi-eşqdə
Kim, bu səhranın güzərgəhlərdə çox səyyadı var.

Ey Füzuli, eşq mənin qılma nasehdən qəbul,
Əql tədbiridir ol, sanma ki, bir bünyadı var.